UOT 327; 930.22
https://doi.org/10.30546/25194011.2026.15.02.2134

CƏNUBİ QAFQAZDA GEOSİYASİ SABİTLİYİN VƏ TƏHLÜKƏSİZLİYİN GÜCLƏNDİRİLMƏSİNDƏ AZƏRBAYCAN–TÜRKİYƏ STRATEJİ TƏRƏFDAŞLIĞININ ROLU

Rəvan MƏMMƏDOV *

Daxil olub: 27 Yanvar 2026 | Qəbul edilib: 4 May 2026 | Onlayn nəşr edilib: 17 May 2026
Received: 27 January 2026 | Accepted: 4 May 2026 | Published online: 17 May 2026

Açar sözlər: *Azərbaycan, Türkiyə, strateji tərəfdaşlıq, Cənubi Qafqaz, geosiyasi sabitlik, regional təhlükəsizlik, Şuşa Bəyannaməsi, enerji diplomatiyası, Orta Dəhliz, Türk Dövlətləri Təşkilatı*

Giriş

XXI əsrdə beynəlxalq münasibətlər sistemində geosiyasi rəqabətin intensivləşməsi Cənubi Qafqaz regionunun strateji əhəmiyyətini daha da artırmışdır. Xəzər və Qara dəniz hövzələri arasında yerləşən region Avropa, Yaxın Şərq və Mərkəzi Asiyanı birləşdirən mühüm geoiqtisadi və geostrateji məkan hesab olunur. Bölgənin zəngin karbohidrogen ehtiyatlarına malik olması, Avropanın enerji təhlükəsizliyində mühüm rol oynaması və beynəlxalq nəqliyyat dəhlizlərinin üzərində yerləşməsi onu qlobal güclərin maraq dairəsinə daxil etmişdir.

Cənubi Qafqaz tarix boyu müxtəlif imperiyaların rəqabət meydanı olmuş, etnik və dini müxtəliflik, sərhəd problemləri ilə geosiyasi maraqlar regionda uzunmüddətli münaqişələrin yaranmasına səbəb olmuşdur. Xüsusilə Ermənistan–Azərbaycan münaqişəsi regionun təhlükəsizlik sisteminə uzun illər ciddi təsir göstərmişdir. Azərbaycan və Türkiyə arasında münasibətlərin inkişafı beynəlxalq münasibətlər nəzəriyyələri baxımından da xüsusi maraq doğurur. Neorealizm nəzəriyyəsinə görə, dövlətlər anarxik beynəlxalq sistemdə təhlükəsizliklərini təmin etmək məqsədilə ittifaqlar yaradırlar. Bu baxımdan Azərbaycan–Türkiyə strateji tərəfdaşlığı ortaq təhlükəsizlik maraqlarının qorunmasına xidmət edən balanslaşdırma siyasətinin nümunəsi hesab edilə bilər. Digər tərəfdən, liberal institusionalizm nəzəriyyəsi dövlətlər arasında əməkdaşlığın beynəlxalq institutlar və qarşılıqlı iqtisadi asılılıq vasitəsilə möhkəmləndiyini irəli sürür.

Azərbaycan-Türkiyə münasibətlərinin geosiyasi əhəmiyyəti təkcə ikitərəfli əməkdaşlıqla məhdudlaşmır. Bu münasibətlər Cənubi Qafqazda sabitliyin qorunmasına, Avropanın enerji təhlükəsizliyinə, Orta Dəhlizin inkişafına və Türk Dövlətləri Təşkilatı çərçivəsində inteqrasiyanın dərinləşməsinə mühüm təsir göstərir. Xüsusilə Rusiya–Ukrayna müharibəsindən sonra Avropanın alternativ enerji mənbələrinə artan ehtiyacı Azərbaycan və Türkiyənin geoiqtisadi əhəmiyyətini daha da yüksəltmişdir. Məqalənin əsas məqsədi Azərbaycan–Türkiyə strateji tərəfdaşlığının formalaşma xüsusiyyətlərini, onun institusional və hüquqi əsaslarını araşdırmaq, eləcə də bu əməkdaşlığın Cənubi Qafqazda geosiyasi sabitlik və təhlükəsizlik sisteminə təsirini qiymətləndirməkdir. Tədqiqat zamanı beynəlxalq münasibətlər nəzəriyyələri, müqayisəli siyasi təhlil, rəsmi dövlət sənədləri və müasir akademik ədəbiyyat əsasında kompleks yanaşma tətbiq edilmişdir.

1. Azərbaycan-Türkiyə strateji tərəfdaşlığının nəzəri və institusional əsasları

Müasir beynəlxalq münasibətlər sistemində "strateji tərəfdaşlıq" anlayışı dövlətlər arasında uzunmüddətli qarşılıqlı maraqlara əsaslanan, siyasi etimadın yüksək olduğu və təhlükəsizlik, iqtisadiyyat, enerji, müdafiə, diplomatiya və humanitar sahələri əhatə edən çoxşaxəli əməkdaşlıq modelini

* *doktorant, Bakı Slavyan Universiteti*
e-mail: revancl390@gmail.com

ifadə edir [3]. Klassik ittifaqlardan fərqli olaraq, strateji tərəfdaşlıq yalnız müəyyən təhlükəyə qarşı müvəqqəti əməkdaşlıq deyil, dövlətlərin uzunmüddətli xarici siyasət prioritetlərini uzlaşdıran institusional münasibətlər sistemidir.

Müasir beynəlxalq münasibətlər nəzəriyyəsində strateji tərəfdaşlığın izahı müxtəlif nəzəri məktəblər tərəfindən fərqli şəkildə təqdim olunur. Neorealist yanaşmaya görə, dövlətlərin əsas məqsədi milli təhlükəsizliklərini təmin etmək və beynəlxalq sistemdə mövqelərini qorumaqdır [16]. Bu baxımdan, Azərbaycan və Türkiyə arasında müdafiə sahəsində əməkdaşlığın genişlənməsi, hərbi sənaye inteqrasiyası və ortaq təhlükəsizlik siyasəti regional balansın qorunmasına xidmət edən rasional seçim kimi qiymətləndirilə bilər.

Liberal institusionalizm isə dövlətlərin uzunmüddətli əməkdaşlığının əsasını qarşılıqlı iqtisadi asılılıq və beynəlxalq institutların fəaliyyəti ilə əlaqələndirir [13]. Azərbaycan–Türkiyə münasibətlərində enerji layihələri, nəqliyyat dəhlizləri, ticarət əlaqələri və yüksək səviyyəli siyasi dialoq mexanizmləri bu yanaşmanın praktik nümunəsi hesab olunur. TANAP, TAP və Bakı–Tbilisi-Qars dəmiryolu layihələri yalnız iqtisadi deyil, həm də siyasi qarşılıqlı asılılıq yaradaraq strateji tərəfdaşlığın davamlılığını təmin etmişdir.

Konstruktivist yanaşmaya görə isə dövlətlərin xarici siyasəti yalnız maddi maraqlarla deyil, həm də ortaq kimlik, tarix, mədəniyyət və ideoloji dəyərlərlə müəyyən edilir [17]. Azərbaycan ilə Türkiyə arasında münasibətlərin "Bir millət, iki dövlət" prinsipi üzərində qurulması konstruktivist yanaşmanın ən uğurlu nümunələrindən biri hesab edilə bilər. Ortaq dil, din, mədəni irs və tarixi yaddaş siyasi münasibətlərin dərinləşməsində mühüm rol oynamışdır. Məhz bu amillər iki ölkə arasında yaranmış etimadın digər regional əməkdaşlıq modellərindən daha dayanıqlı olmasını təmin etmişdir.

1991-ci ildə Azərbaycanın müstəqilliyini tanıyan ilk dövlətlərdən biri Türkiyə olmuşdur. Həmin dövrdən etibarən iki ölkə arasında siyasi münasibətlər ardıcıl şəkildə inkişaf etmiş, iqtisadi və hərbi əməkdaşlıq genişlənmişdir. Xüsusilə 1994-cü ildə "Əsrin müqaviləsi"nin imzalanmasından sonra Türkiyə Azərbaycanın enerji strategiyasının əsas tərəfdaşına çevrilmiş, sonrakı dövrdə həyata keçirilən Bakı-Tbilisi-Ceyhan neft kəməri və Cənub Qaz Dəhlizi layihələri bu münasibətləri strateji səviyyəyə yüksəltmişdir [9].

Azərbaycan və Türkiyə arasında münasibətlər ortaq tarixi, mədəni və etnik bağlara əsaslansa da, onların müasir strateji xarakter alması Azərbaycanın dövlət müstəqilliyini bərpa etməsindən sonra başlamışdır. Türkiyə Respublikası 9 noyabr 1991-ci ildə Azərbaycanın müstəqilliyini tanıyan ilk dövlət olmuş və bununla da iki ölkə arasında siyasi münasibətlərin inkişafının əsası qoyulmuşdur [15]. 1992-ci ildə diplomatik münasibətlərin qurulması ilə tərəflər siyasi, iqtisadi və humanitar əməkdaşlığın institusional mexanizmlərini formalaşdırmağa başlamışlar. 1990-cı illərin əvvəllərində Ermənistanın Azərbaycana qarşı hərbi təcavüzü və ölkənin qarşılaşdığı daxili siyasi çətinliklər fonunda Türkiyə Azərbaycanın beynəlxalq hüquqa əsaslanan mövqeyini ardıcıl şəkildə dəstəkləmişdir. Bu dəstək yalnız diplomatik bəyanatlarla məhdudlaşmamış, beynəlxalq təşkilatlarda Azərbaycanın ərazi bütövlüyünün müdafiəsi istiqamətində də davam etmişdir [10].

1994-cü ildə imzalanmış "Əsrin müqaviləsi" Azərbaycan–Türkiyə münasibətlərinin iqtisadi əsaslarının formalaşmasında dönüş nöqtəsi olmuşdur. Bu müqavilə Xəzər dənizinin enerji ehtiyatlarının dünya bazarlarına çıxarılması üçün yeni imkanlar yaratmış, Türkiyəni Azərbaycanın əsas enerji tərəfdaşlarından birinə çevirmişdir [7]. Sonrakı dövrdə Bakı–Tbilisi–Ceyhan əsas ixrac neft kəmərinin istifadəyə verilməsi iki ölkənin geoiqtisadi əhəmiyyətini əhəmiyyətli dərəcədə artırmışdır.

2000-ci illərdən etibarən əməkdaşlıq yeni mərhələyə qədəm qoymuşdur. Bu dövrdə enerji ilə yanaşı, müdafiə sənayesi, nəqliyyat, təhsil, mədəniyyət sahələrində və beynəlxalq təşkilatlar çərçivəsində əməkdaşlıq genişlənmişdir. Xüsusilə Bakı-Tbilisi-Ərzurum qaz kəməri, daha sonra isə Cənub Qaz Dəhlizi, TANAP və TAP layihələri Azərbaycanın Avropanın enerji təhlükəsizliyində strateji tərəfdaş kimi mövqeyini möhkəmləndirmişdir [11].

2010-cu ildə imzalanmış "Strateji Tərəfdaşlıq və Qarşılıqlı Yardım haqqında Müqavilə" münasibətləri keyfiyyətcə yeni mərhələyə yüksəltmişdir. Müqavilədə tərəflərdən birinə qarşı silahlı hücum baş verdiyi halda, qarşılıqlı yardım göstərilməsi öhdəliyi müəyyən edilmişdir. Bu sənəd Azərbaycan–Türkiyə münasibətlərini klassik strateji tərəfdaşlıqdan müttəfiqlik münasibətlərinə doğru inkişaf et-

dirən əsas hüquqi baza hesab olunur [15]. 2020-ci ildə baş vermiş İkinci Qarabağ müharibəsi Azərbaycan-Türkiyə strateji əməkdaşlığının praktik nəticələrini nümayiş etdirmişdir. Müharibə dövründə Türkiyə Azərbaycanın beynəlxalq hüquqa əsaslanan mövqeyini qətiyyətlə dəstəkləmiş, hərbi-siyasi əməkdaşlıq isə Azərbaycanın müdafiə qabiliyyətinin gücləndirilməsində mühüm rol oynamışdır [12].

Bu proseslərin məntiqi davamı kimi, 15 iyun 2021-ci ildə Şuşa şəhərində Azərbaycan Respublikası ilə Türkiyə Respublikası arasında Müttəfiqlik Münasibətləri haqqında Şuşa Bəyannaməsi imzalanmışdır. Həmin sənəd iki ölkə arasında münasibətləri rəsmi şəkildə müttəfiqlik səviyyəsinə yüksəltmiş və gələcək əməkdaşlığın əsas istiqamətlərini müəyyən etmişdir [2].

2021-ci il 15 iyun tarixində imzalanmış Şuşa Bəyannaməsi müasir dövrdə Azərbaycan–Türkiyə münasibətlərinin ən mühüm siyasi-hüquqi sənədi hesab olunur. Bəyannamənin məhz Şuşada imzalanması həm simvolik, həm də geosiyasi baxımdan xüsusi əhəmiyyət daşıyır. Şuşa Azərbaycanın mədəniyyət paytaxtı olmaqla yanaşı, İkinci Qarabağ müharibəsindən sonra regionda yaranmış yeni geosiyasi reallıqların rəmzi kimi qiymətləndirilir. Şuşa Bəyannaməsində qeyd olunur ki, tərəflər dövlətlərin suverenliyi, müstəqilliyi, ərazi bütövlüyü, beynəlxalq səviyyədə tanınmış sərhədlərin toxunulmazlığı və daxili işlərə qarışmamaq prinsiplərini rəhbər tutaraq müttəfiqlik münasibətlərini inkişaf etdirirlər [2].

Xüsusilə sənədin təhlükəsizlik məsələlərinə dair müddəaları diqqəti cəlb edir. Burada tərəflərdən birinin təhlükəsizliyinə yönəlmiş təhdidlərin digər tərəfin təhlükəsizliyi üçün də risk hesab olunacağı vurğulanır. Bu yanaşma NATO-nun kollektiv müdafiə prinsipini xatırlatsa da, ikitərəfli formatda həyata keçirilir. Şuşa Bəyannaməsində Zəngəzur dəhlizinin açılması, Orta Dəhlizin inkişaf etdirilməsi və regional kommunikasiya xətlərinin genişləndirilməsi də əsas prioritetlərdən biri kimi göstərilmişdir. Bu isə yalnız Azərbaycan və Türkiyə üçün deyil, bütövlükdə Avrasiya məkanında yeni nəqliyyat sisteminin formalaşmasına xidmət edir [8]. Azərbaycan-Türkiyə strateji tərəfdaşlığının ən mühüm istiqamətlərindən biri müdafiə və təhlükəsizlik sahəsində əməkdaşlıqdır. Son on beş il ərzində bu istiqamətdə əməkdaşlıq sürətlə inkişaf etmiş və regionun təhlükəsizlik balansına ciddi təsir göstərmişdir.

Azərbaycan Silahlı Qüvvələrinin NATO standartlarına uyğunlaşdırılması istiqamətində Türkiyə mühüm dəstək göstərmişdir. Hərbi təhsil, zabit hazırlığı, qərargah planlaşdırılması və hərbi idarəetmə sistemlərinin modernləşdirilməsi sahəsində minlərlə azərbaycanlı hərbçi Türkiyədə təhsil almışdır [12]. Birgə hərbi təlimlər strateji əməkdaşlığın mühüm elementidir. "TurAz Qartalı", "Mustafa Kamal Atatürk", "Qış Təlimi", "Anadolu Ankası" və "EFES" təlimləri iki ölkənin silahlı qüvvələri arasında qarşılıqlı fəaliyyət qabiliyyətini artırmışdır. Bu təlimlər zamanı xüsusi təyinatlı qüvvələrin, aviasiyanın, quru qoşunlarının və artilleriya bölmələrinin koordinasiyası inkişaf etdirilmişdir.

Müdafiə sənayesi sahəsində əməkdaşlıq xüsusilə son illərdə yeni mərhələyə qədəm qoymuşdur. Türkiyə istehsalı olan "Bayraktar TB2", "Akıncı", "ANKA" pilotsuz uçuş aparatları, eləcə də yüksək dəqiqlikli raket sistemləri müasir müharibələrin xarakterini dəyişən texnologiyalar kimi qiymətləndirilir. Azərbaycan bu texnologiyaların tətbiqi sayəsində müdafiə imkanlarını əhəmiyyətli dərəcədə gücləndirmişdir. 2020-ci il Vətən müharibəsi göstərdi ki, yüksək texnologiyaların tətbiqi müasir döyüş əməliyyatlarında həlledici rol oynayır. Beynəlxalq ekspertlərin əksəriyyəti hesab edir ki, pilotsuz uçuş aparatlarının geniş istifadəsi müharibənin gedişinə ciddi təsir göstərmişdir [12].

Bundan əlavə, müdafiə sənayesində birgə istehsal layihələrinin həyata keçirilməsi, hərbi sənaye müəssisələri arasında əməkdaşlıq və yeni texnologiyaların transferi gələcəkdə Azərbaycan müdafiə sənayesinin inkişafı üçün mühüm perspektivlər yaradır. Azərbaycan–Türkiyə strateji tərəfdaşlığının əsas sütunlarından biri enerji diplomatiyasıdır. Müasir beynəlxalq münasibətlər sistemində enerji resursları yalnız iqtisadi inkişaf vasitəsi deyil, eyni zamanda xarici siyasətin və milli təhlükəsizliyin mühüm aləti hesab olunur [19]. Azərbaycanın zəngin neft və təbii qaz ehtiyatları, Türkiyənin isə Avropa ilə Asiya arasında yerləşən tranzit mövqeyi iki ölkənin qarşılıqlı maraqlarını tamamlayan geoiqtisadi model formalaşdırmışdır. 2006-cı ildə istifadəyə verilmiş Bakı-Tbilisi-Ceyhan əsas ixrac neft kəməri Azərbaycanın dünya enerji bazarlarına çıxışını təmin etmişdir. Sonrakı dövrdə Bakı-Tbilisi-Ərzurum, TANAP və TAP layihələri Cənub Qaz Dəhlizinin əsas elementlərinə çevrilmişdir [11].

Xüsusilə, Rusiya-Ukrayna müharibəsindən sonra Avropa İttifaqının enerji siyasətində Azərbaycan qazının rolu əhəmiyyətli dərəcədə artmışdır. 2022-ci ildə Avropa Komissiyası ilə Azərbaycan arasında imzalanmış Strateji Enerji Memorandumu qaz ixracının artırılmasını nəzərdə tutur. Enerji əməkdaşlığı ilə yanaşı, Bakı-Tbilisi-Qars dəmiryolu, Orta Dəhliz, Ələt Beynəlxalq Dəniz Ticarət Limanı və gələcəkdə Zəngəzur dəhlizi layihələri Azərbaycan və Türkiyəni Avrasiyanın əsas logistika mərkəzlərindən birinə çevirmək potensialına malikdir. Bu layihələr yalnız iqtisadi mənfəət deyil, həm də regionun geosiyasi əhəmiyyətinin artmasına xidmət edir. Beləliklə, enerji diplomatiyası və nəqliyyat-kommunikasiya layihələri Azərbaycan–Türkiyə strateji tərəfdaşlığını regional əməkdaşlıq modelindən çıxararaq qlobal geoiqtisadi sistemin mühüm elementinə çevirmişdir. [11].

1. Azərbaycan-Türkiyə strateji tərəfdaşlığının Cənubi Qafqazda geosiyasi sabitliyə və təhlükəsizliyə təsiri

2020-ci ilin sentyabr-noyabr aylarında baş vermiş 44 günlük Vətən müharibəsi Cənubi Qafqazın geosiyasi mənzərəsini köklü şəkildə dəyişdirmişdir. Azərbaycanın öz ərazi bütövlüyünü böyük ölçüdə bərpa etməsi regionda uzun illər davam edən status-kvonu sona çatdırmış, yeni siyasi, hərbi və iqtisadi reallıqlar formalaşdırmışdır [5]. Bu dəyişikliklər yalnız Azərbaycan və Ermənistan arasındakı münasibətlərə deyil, həm də regionda maraqları olan Türkiyə, Rusiya, Avropa İttifaqı, İran və digər beynəlxalq aktorların siyasətlərinə əhəmiyyətli təsir göstərmişdir. İkinci Qarabağ müharibəsi göstərdi ki, Cənubi Qafqazda təhlükəsizlik arxitekturası artıq əvvəlki balans üzərində qurula bilməz. Müharibədən sonra Azərbaycan regionda təşəbbüsü ələ alan əsas aktora çevrilmiş, Türkiyə isə siyasi və hərbi baxımdan bu prosesin ən mühüm tərəfdaşlarından biri olmuşdur. Nəticədə Ankara ilk dəfə olaraq Cənubi Qafqazın təhlükəsizlik sisteminin formalaşdırılmasında institusional iştirak imkanları əldə etmişdir [12].

Müharibədən sonra imzalanmış 10 noyabr 2020-ci il üçtərəfli Bəyanatı regionda yeni əməkdaşlıq imkanlarının yaranmasına şərait yaratmışdır. Kommunikasiyaların açılması, iqtisadi əlaqələrin bərpası və nəqliyyat dəhlizlərinin inkişaf etdirilməsi regional inteqrasiyanın əsas istiqamətləri kimi müəyyən edilmişdir. Azərbaycan və Türkiyə bu prosesdə yalnız siyasi dəstək göstərən tərəflər deyil, həm də yeni iqtisadi əməkdaşlıq modelinin təşəbbüskarları kimi çıxış etmişlər [18]. Yeni geosiyasi şəraitdə Azərbaycanın xarici siyasəti daha çox regional əməkdaşlıq və iqtisadi inteqrasiya prinsiplərinə əsaslanmağa başlamışdır. Prezident İlham Əliyevin irəli sürdüyü "3+3" regional əməkdaşlıq platforması ideyası da məhz müharibədən sonrakı dövrdə region ölkələri arasında əməkdaşlığın genişləndirilməsinə hesablanmışdır. Türkiyə bu təşəbbüsü açıq şəkildə dəstəkləmiş və platformanın regionda uzunmüddətli sabitliyə xidmət edə biləcəyini bəyan etmişdir.

Müharibədən sonra Türkiyə ilə Azərbaycanın siyasi koordinasiyası daha da güclənmişdir. Dövlət başçılarının müntəzəm görüşləri, xarici işlər nazirləri arasında koordinasiya və müdafiə sahəsində əməkdaşlığın genişlənməsi yeni təhlükəsizlik modelinin əsas elementlərinə çevrilmişdir. Bu proses Şuşa Bəyannaməsinin imzalanması ile daha da institusionallaşdırılmışdır.

Beynəlxalq ekspertlər qeyd edirlər ki, 2020-ci ildən sonra Cənubi Qafqazda yaranmış yeni geosiyasi vəziyyət regionun yalnız hərbi deyil, həm də iqtisadi və diplomatik xəritəsini dəyişmişdir [5]. Əgər əvvəlki dövrdə region əsasən münaqişə ilə xarakterizə olunurdusa, hazırda əsas gündəm kommunikasiyaların açılması, enerji təhlükəsizliyi və regional əməkdaşlıq məsələləridir.

Regional təhlükəsizlik anlayışı yalnız dövlətlərin hərbi təhlükəsizliyini deyil, həm də siyasi sabitliyi, iqtisadi dayanıqlılığı və beynəlxalq əməkdaşlıq mexanizmlərini özündə birləşdirən kompleks anlayışdır [6]. Bu baxımdan, Azərbaycan və Türkiyə arasında formalaşmış strateji müttəfiqlik Cənubi Qafqazda yeni təhlükəsizlik arxitekturasının əsas sütunlarından biri hesab edilir. Azərbaycan və Türkiyə arasında hərbi əməkdaşlığın dərinləşməsi regionda çəkindirmə (*deterrence*) siyasətinin güclənməsinə səbəb olmuşdur. Müasir beynəlxalq münasibətlər nəzəriyyəsinə görə, potensial təcavüzkarın hücum etmək niyyətindən çəkindirilməsi üçün güclü hərbi potensial və etibarlı müttəfiqlik münasibətləri mühüm rol oynayır [14]. Azərbaycan və Türkiyə arasında müdafiə sahəsində qurulan institusional əməkdaşlıq məhz bu funksiyanı yerinə yetirir. Birgə hərbi təlimlər, müdafiə sənayesində əməkdaşlıq və hərbi texnologiyaların transferi regionda təhlükəsizlik balansının qorunmasına xidmət edir.

Bu əməkdaşlıq təkcə Azərbaycanın müdafiə qabiliyyətini artırmır, eyni zamanda potensial hərbi risklərin qarşısının alınmasına da töhfə verir.

Digər mühüm məsələ isə terrorizm, transmilli cinayətkarlıq, qanunsuz miqrasiya və kibertəhlükəsizlik kimi yeni təhlükəsizlik çağırışlarıdır. Azərbaycan və Türkiyə bu istiqamətdə də birgə fəaliyyət göstərərək kəşfiyyat məlumatlarının mübadiləsini həyata keçirir, hüquq-mühafizə orqanları arasında əməkdaşlığı inkişaf etdirirlər. Xüsusilə PKK, İŞİD və digər terror təşkilatlarına qarşı mübarizə sahəsində koordinasiya regional təhlükəsizliyin mühüm komponentinə çevrilmişdir. Eyni zamanda, iki ölkə müdafiə sənayesində texnoloji əməkdaşlığı genişləndirərək hərbi məhsulların birgə istehsalına xüsusi diqqət yetirir. Bu, xarici silah bazarlarından asılılığın azalmasına və milli müdafiə sənayesinin inkişafına imkan yaradır.

Müasir dövrdə enerji təhlükəsizliyi dövlətlərin milli təhlükəsizliyinin ayrılmaz hissəsinə çevrilmişdir. Xüsusilə Rusiya-Ukrayna müharibəsindən sonra Avropa İttifaqının enerji mənbələrinin diversifikasiyası siyasəti Azərbaycanın və Türkiyənin strateji əhəmiyyətini əhəmiyyətli dərəcədə artırmışdır [11]. Azərbaycan dünyanın mühüm təbii qaz ixracatçılarından biri olmaqla yanaşı, Xəzər hövzəsinin enerji resurslarını Avropaya çatdıran əsas ölkədir. Türkiyə isə coğrafi mövqeyi sayəsində Avropa ilə Asiya arasında enerji körpüsü funksiyasını yerinə yetirir. Bu iki amilin vəhdəti nəticəsində formalaşan enerji əməkdaşlığı Cənubi Qafqazın geosiyasi əhəmiyyətini daha da artırmışdır. Cənub Qaz Dəhlizi bu əməkdaşlığın ən mühüm nümunəsidir. Dəhlizin əsas komponentləri olan "Şahdəniz-2", Cənubi Qafqaz Boru Kəməri, TANAP və TAP layihələri Avropanın enerji təhlükəsizliyində mühüm rol oynayır. Bu layihələr vasitəsilə Azərbaycan qazı Türkiyə ərazisindən keçərək Yunanıstan, Albaniya və İtaliyaya nəql edilir [19].

Enerji layihələri yalnız iqtisadi gəlir mənbəyi deyil, həm də siyasi əməkdaşlıq vasitəsidir. Liberal nəzəriyyəyə əsasən, iqtisadi qarşılıqlı asılılıq dövlətlər arasında münaqişə ehtimalını azaldır və uzunmüddətli əməkdaşlığı təşviq edir [13]. Azərbaycan-Türkiyə enerji əməkdaşlığı bu nəzəri yanaşmanın praktik nümunəsi hesab oluna bilər. Enerji təhlükəsizliyi ilə yanaşı, nəqliyyat layihələri də geosiyasi sabitliyin mühüm elementidir. Bakı–Tbilisi–Qars dəmiryolu, Ələt Beynəlxalq Dəniz Ticarət Limanı və Orta Dəhliz Avropa ilə Asiya arasında yükdaşımaların daha sürətli və təhlükəsiz həyata keçirilməsinə imkan verir. Xüsusilə Çinin "Bir kəmər, bir yol" təşəbbüsü çərçivəsində Orta Dəhlizin əhəmiyyəti son illərdə daha da artmışdır. Beləliklə, enerji və nəqliyyat layihələri Azərbaycan–Türkiyə strateji tərəfdaşlığını regional əməkdaşlıq modelindən çıxararaq qlobal iqtisadi təhlükəsizlik sisteminin mühüm komponentinə çevirmişdir.

Azərbaycan ilə Türkiyə arasında formalaşmış strateji tərəfdaşlıq təkcə hərbi və siyasi əməkdaşlıq çərçivəsində deyil, həm də regional iqtisadi inteqrasiyanın əsas hərəkətverici qüvvələrindən biri kimi çıxış edir. Müasir beynəlxalq münasibətlər nəzəriyyələrində iqtisadi qarşılıqlı asılılıq (*economic interdependence*) dövlətlər arasında münaqişə riskini azaldan və əməkdaşlığı təşviq edən mühüm amillərdən biri hesab edilir [13]. Bu baxımdan, Azərbaycan–Türkiyə münasibətləri Cənubi Qafqaz üçün iqtisadi təhlükəsizlik modelinin formalaşmasına əhəmiyyətli töhfə verir.

1994-cü ildə imzalanmış "Əsrin müqaviləsi"ndən başlayaraq, Bakı-Tbilisi-Ceyhan neft kəməri, Bakı–Tbilisi–Ərzurum qaz kəməri və sonrakı dövrdə TANAP layihəsinin həyata keçirilməsi regionun enerji xəritəsini köklü şəkildə dəyişdirmişdir [4]. Xüsusilə TANAP layihəsi Azərbaycan qazının Avropa bazarına çatdırılmasını təmin etməklə, Avropa İttifaqının enerji təhlükəsizliyinin gücləndirilməsində mühüm rol oynayır. Enerji əməkdaşlığının davamı olaraq, Bakı-Tbilisi-Qars dəmiryolu layihəsi regional nəqliyyat əlaqələrinin inkişafında yeni mərhələ yaratmışdır. Dəmiryolu Çindən Avropaya uzanan Orta Dəhlizin əsas hissələrindən biri kimi fəaliyyət göstərir və qlobal logistika sistemində Cənubi Qafqazın əhəmiyyətini artırır. Dünya Bankı hesab edir ki, Orta Dəhliz üzrə yükdaşımaların həcmi yaxın illərdə bir neçə dəfə arta bilər ki, bu da Azərbaycan və Türkiyənin tranzit potensialını daha da gücləndirəcəkdir [18].

İqtisadi layihələrin təhlükəsizlik aspekti də xüsusi əhəmiyyət daşıyır. İnfrastruktur layihələrinin uğurlu fəaliyyəti region dövlətlərini qarşılıqlı əməkdaşlığa təşviq edir, iqtisadi maraqları birləşdirir və münaqişələrin iqtisadi dəyərini artıraraq onların baş vermə ehtimalını azaldır. Bu baxımdan, iqtisadi inteqrasiya təhlükəsizlik siyasətinin ayrılmaz elementi kimi çıxış edir. Azərbaycanın azad edil-

miş ərazilərində aparılan yenidənqurma işləri də Türkiyə şirkətlərinin fəal iştirakı ilə həyata keçirilir. Yol infrastrukturu, hava limanları, ağıllı kənd layihələri və enerji obyektlərinin tikintisi regionun iqtisadi dirçəlişinə xidmət etməklə yanaşı, uzunmüddətli sabitliyin möhkəmləndirilməsi baxımından da mühüm əhəmiyyət kəsb edir. Cənubi Qafqaz tarixən böyük güclərin rəqabət meydanı olmuşdur. Müasir dövrdə də Rusiya, Avropa İttifaqı, ABŞ, İran və Çin regionun geosiyasi balansına müxtəlif vasitələrlə təsir göstərirlər. Azərbaycan və Türkiyənin strateji tərəfdaşlığı isə bu rəqabət mühitində regional sabitliyi qorumağa yönəlmiş mühüm faktor kimi çıxış edir. Rusiya uzun illər regionda əsas təhlükəsizlik aktoru hesab edilmişdir. Lakin 2022-ci ildən sonra Ukrayna müharibəsi Rusiyanın Cənubi Qafqazdakı imkanlarını müəyyən qədər zəiflətmiş və yeni geosiyasi reallıqlar yaratmışdır. Bu vəziyyət Azərbaycan və Türkiyənin regional təşəbbüslərinin daha da güclənməsinə şərait yaratmışdır.

Avropa İttifaqı isə enerji təhlükəsizliyi və nəqliyyat əlaqələrinin şaxələndirilməsi baxımından Azərbaycanla əməkdaşlığa xüsusi əhəmiyyət verir. 2022-ci ildə Azərbaycan ilə Avropa Komissiyası arasında enerji sahəsində strateji tərəfdaşlıq haqqında Anlaşma Memorandumu imzalanmış və Avropaya qaz ixracının artırılması nəzərdə tutulmuşdur. Bu əməkdaşlıq Türkiyənin tranzit ölkə kimi strateji əhəmiyyətini də artırmışdır. ABŞ regionda əsasən enerji təhlükəsizliyi, iqtisadi inteqrasiya və sülh prosesinin dəstəklənməsi istiqamətində fəaliyyət göstərir. Vaşinqton Bakı-Tbilisi-Ceyhan və Cənub Qaz Dəhlizi layihələrinin həyata keçirilməsini uzun illər dəstəkləmişdir. İran isə regionda yeni kommunikasiya layihələrinə ehtiyatla yanaşır. Xüsusilə Zəngəzur dəhlizi ətrafında aparılan müzakirələr İranın geoiqtisadi maraqları ilə bağlı narahatlıqlarını artırmışdır. Bununla belə, Azərbaycan dəfələrlə bəyan etmişdir ki, bütün kommunikasiya layihələri dövlətlərin suverenliyi və ərazi bütövlüyü prinsiplərinə uyğun şəkildə həyata keçirilməlidir. Çinin "Bir kəmər, bir yol" təşəbbüsü də Azərbaycan–Türkiyə əməkdaşlığının əhəmiyyətini artırır. Orta Dəhliz Çin ilə Avropa arasında alternativ marşrut kimi getdikcə daha çox strateji əhəmiyyət qazanır və Bakı ilə Ankaranın regional rolunu gücləndirir. Beləliklə, müxtəlif qlobal aktorların maraqları fonunda Azərbaycan–Türkiyə strateji tərəfdaşlığı rəqabət yaradan deyil, əksinə, çoxtərəfli əməkdaşlığı təşviq edən regional sabitlik platforması kimi qiymətləndirilə bilər.

Nəticə

Azərbaycan-Türkiyə strateji tərəfdaşlığı son otuz il ərzində Cənubi Qafqazın geosiyasi strukturunun formalaşmasına təsir göstərən ən mühüm regional əməkdaşlıq modellərindən birinə çevrilmişdir. Ortaq tarix, dil, mədəniyyət və qarşılıqlı siyasi etimad üzərində qurulan bu münasibətlər zaman keçdikcə institusional xarakter almış, siyasi, hərbi, iqtisadi, enerji, nəqliyyat və humanitar sahələri əhatə edən çoxşaxəli strateji müttəfiqliyə çevrilmişdir.

Tədqiqat göstərir ki, Azərbaycan–Türkiyə əməkdaşlığı yalnız ikitərəfli münasibətlərin inkişafı ilə məhdudlaşmır. Əksinə, bu əməkdaşlıq Cənubi Qafqazda təhlükəsizlik arxitekturasının yenidən formalaşmasına, regional iqtisadi inteqrasiyanın genişlənməsinə və beynəlxalq enerji təhlükəsizliyinin təmin olunmasına mühüm töhfə vermişdir. Xüsusilə Bakı–Tbilisi–Ceyhan, Bakı–Tbilisi–Ərzurum, TANAP, TAP və Bakı-Tbilisi-Qars kimi strateji layihələr regionun geoiqtisadi əhəmiyyətini artırmış və Azərbaycanla Türkiyəni Avropa ilə Asiya arasında əsas tranzit aktorlarına çevirmişdir.

2020-ci il Vətən müharibəsindən sonra yaranmış yeni geosiyasi reallıq Azərbaycan–Türkiyə strateji tərəfdaşlığının əhəmiyyətini daha da artırmışdır. Şuşa Bəyannaməsinin imzalanması iki ölkənin münasibətlərini müttəfiqlik səviyyəsinə yüksəltmiş və təhlükəsizlik sahəsində əməkdaşlığın hüquqi əsaslarını daha da gücləndirmişdir. Bu sənəd təkcə hərbi əməkdaşlığı deyil, eyni zamanda iqtisadi inkişafı, enerji təhlükəsizliyini, nəqliyyat əlaqələrini, müdafiə sənayesini və xarici siyasətdə koordinasiyanı da əhatə edən geniş əməkdaşlıq çərçivəsi yaratmışdır. Tədqiqatın nəticələri göstərir ki, Azərbaycan və Türkiyə tərəfindən həyata keçirilən regional təşəbbüslər qarşıdurma yaratmaqdan daha çox iqtisadi qarşılıqlı asılılığın artırılmasına, nəqliyyat dəhlizlərinin inkişafına və regional sabitliyin möhkəmləndirilməsinə xidmət edir. Orta Dəhlizin inkişafı, Zəngəzur istiqamətində kommunikasiya imkanlarının genişləndirilməsi və Türk Dövlətləri Təşkilatı çərçivəsində əməkdaşlığın dərinləşdirilməsi gələcək regional inteqrasiyanın əsas istiqamətlərini təşkil edir.

ƏDƏBİYYAT

1. *Azərbaycan Respublikası ilə Türkiyə Respublikası arasında Strateji tərəfdaşlıq və qarşılıqlı yardım haqqında Müqavilə.* Bakı, 2010. (https://president.az).
2. Azərbaycan Respublikası Prezidentinin Administrasiyası. *Azərbaycan Respublikası ilə Türkiyə Respublikası arasında Müttəfiqlik Münasibətləri haqqında Şuşa Bəyannaməsi,* 2021. (https://president.az).
3. Baylis J., Smith S. & Owens P. *The Globalization of World Politics: An Introduction to International Relations* (8th ed.). Oxford University Press, 2020, 640 p.
4. BP. *Statistical Review of World Energy 2024.* (https://www.bp.com).
5. Broers L. *Armenia and Azerbaijan: Anatomy of a Rivalry.* Edinburgh University Press, 2021, 400 p.
6. Buzan B. & Wæver O. *Regions and Powers: The Structure of International Security*. Cambridge University Press, 2003, 564 p.
7. Cornell S. *Azerbaijan Since Independence.* London & New York: Routledge, 2015, 512 p.
8. Cornell S. *The New Geopolitics of the South Caucasus: Prospects for Regional Cooperation after the Karabakh War.* Central Asia-Caucasus Institute & Silk Road Studies Program, 2021. (https://www.silkroadstudies.org/).
9. Cornell S. *The Armenia-Azerbaijan Conflict after the Second Karabakh War.* Central Asia-Caucasus Institute & Silk Road Studies Program, 2022. (https://www.silkroadstudies.org/).
10. De Waal T. *Black Garden: Armenia and Azerbaijan through Peace and War* (2nd ed.). New York University Press, 2013, 406 p.
11. European Commission. *Memorandum of Understanding on a Strategic Partnership in the Field of Energy between the European Union and the Republic of Azerbaijan,* 2022. (https://energy.ec.europa.eu).
12. Kasapoğlu C. *The Second Karabakh War: Military Lessons for NATO and the Future of Warfare.* EDAM – Centre for Economics and Foreign Policy Studies, 2021. (https://edam.org.tr/en/?utm).
13. Keohane R. & Nye J. *Power and Interdependence* (4th ed.). Pearson, 2012, 376 p.
14. Mearsheimer J. *The Tragedy of Great Power Politics*. **New York**: W.W.Norton & Company, 2014, 592 p.
15. Murinson A. *The Strategic Depth Doctrine of Turkish Foreign Policy // Middle Eastern Studies,* 2006, *42*(6), pp. 945-964.
16. Waltz K. *Theory of International Politics.* **Reading, Massachusetts**:Addison-Wesley, 1979, v 251p.
17. Wendt A. *Social Theory of International Politics.* Cambridge: Cambridge University Press, 1999, 429 p.
18. World Bank. *Middle Corridor: Connecting Europe and Central Asia,* 2023. (https://www.worldbank.org).
19. Yergin D. *The New Map: Energy, Climate, and the Clash of Nations.* Penguin Press, 2020, 543 p.

Резюме

Раван Мамедов

Роль стратегического партнёрства между Азербайджаном и Турцией в укреплении геополитической стабильности и безопасности на Южном Кавказе

Южный Кавказ занимает стратегическое положение на пересечении Европы и Азии и обладает важным геополитическим значением благодаря богатым энергетическим ресурсам и расположению на международных транспортно-коммуникационных маршрутах. Регион, где пересекаются интересы ведущих мировых держав, характеризуется высокой актуальностью вопросов безопасности, энергетики и регионального сотрудничества. Цель статьи заключается в исследовании правовых, политических и институциональных основ стратегического партнерства между Азербайджаном и Турцией, а также в оценке его влияния на укрепление геополитической стабильности и безопасности Южного Кавказа. В исследовании применяются сравнительный анализ, анализ документов и концептуальные подходы теории международных отношений. Рассматриваются Договор о стратегическом партнерстве и взаимной помощи, Шушинская декларация, сотрудничество в сфере энергетики, транспорта и оборонной промышленности, а также новые геополитические реалии, сформировавшиеся после 2020 года. Результаты исследования показывают, что стратегическое партнерство Азербайджана и Турции способствует укреплению региональной стабильности посредством развития военного сотрудничества, обеспечения энергетической безопасности, продвижения Среднего коридора, усиления дипломатической координации и углубления интеграции в рамках Организации тюркских государств. Кроме того, данное партнерство расши-

ряет экономические и политические связи между Европой и Центральной Азией, способствуя формированию устойчивого мира и геополитического баланса на Южном Кавказе.

Ключевые слова: *Азербайджан, Турция, стратегическое партнерство, Южный Кавказ, геополитическая стабильность, региональная безопасность, Шушинская декларация, энергетическая дипломатия, Средний коридор, Организация тюркских государств*

Summary

Ravan Mammadov

The Role of Azerbaijan–Turkey Strategic Partnership in Strengthening Geopolitical Stability and Security in the South Caucasus

The South Caucasus occupies a strategic position at the crossroads of Europe and Asia and has significant geopolitical importance due to its abundant energy resources and its role as a major international transport and communication corridor. As a region where the interests of major powers intersect, issues of security, energy, and regional cooperation have become increasingly important. This article aims to examine the legal, political, and institutional foundations of the Azerbaijan–Türkiye strategic partnership and evaluate its contribution to strengthening geopolitical stability and security in the South Caucasus. The research employs comparative analysis, document analysis, and conceptual approaches derived from international relations theories. The study analyzes the Agreement on Strategic Partnership and Mutual Assistance, the Shusha Declaration, cooperation in energy, transport, and defense industries, as well as the new geopolitical realities that emerged after 2020. The findings indicate that the Azerbaijan–Türkiye strategic partnership significantly contributes to regional stability through enhanced military cooperation, energy security, the development of the Middle Corridor, closer diplomatic coordination, and deeper integration within the Organization of Turkic States. Furthermore, this partnership promotes stronger economic and political connectivity between Europe and Central Asia while contributing to sustainable peace and a balanced geopolitical order in the South Caucasus.

Keywords: *Azerbaijan, Türkiye, strategic partnership, South Caucasus, geopolitical stability, regional security, Shusha Declaration, energy diplomacy, Middle Corridor, Organization of Turkic States*

***Rəyçi**: s.e.d., prof. İbrahimova Gülzar İsaxan qızı*